# "Antiterror əməliyyatı xalqımızın əyilməz ruhunu göstərdi"

**2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun apardığı lokal xarakterli antiterror əməliyyatı regionda dayanıqlı sülhə, əmin-amanlığa və təhlükəsizliyə xidmət edirdi. 44 günlük Vətən müharibəsinin davamı olan 23 saat 43 dəqiqədə lokal xarakterli antiterror əməliyyatı nəticəsində ölkəmiz suverenliyini tam bərpa etdi.**



Milli Məclisin deputatı Pərvin Kərimzadə "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, bir gündən az müddətdə, yüksək peşəkarlıqla həyata keçirilən antiterror əməliyyatı ölkəmizin gücünün, ordumuzun qüdrətinin daha bir parlaq nümayişi kimi tarixin səhifələrinə yazılıb: "O tarixi missiyanın uğurla yerinə yetirilməsindən, dövlətimizin suverenliyinin, ərazi bütövlüyünün tam bərpası, ərazilərimizdə erməni separatizminin kökünün kəsilməsi ilə nəticələnən antiterror əməliyyatının başa çatmasından iki il ötür".

Deputat xatırladıb ki, 44 günlük haqq savaşında imzalanmış kapitulyasiya aktından sonra Azərbaycanın Qarabağ bölgəsində sayı 10 mindən çox olan Ermənistan silahlı qüvvələrinin birləşmələri və qanunsuz erməni silahlı dəstələri mövcud olub: "Üçtərəfli Bəyanata əsasən, Qarabağ ərazisindəki erməni yaraqlıları 3 il əvvəl tərk-silah edilməli idilər. Azərbaycan işğala məruz qalan tərəf olsa da, Qarabağda baş verən gərginliyin aradan qaldırılması, azərbaycanlılarla ermənilərin birgə yaşayışını təmin edəcək reinteqrasiya prosesinin normal davam etməsi və məsələnin ikitərəfli danışıqlar yolu ilə həllini tapması üçün 3 il müddətində əlindən gələni etdi. Təəssüf ki, Azərbaycanın humanist çağırışlarının əvəzində erməni silahlı qüvvələri sayını artırmaqla, yeni silahlar alıb təxribatlar törətməklə məşğul oldular. Vəziyyət o həddə çatdı ki, Qarabağda separatçılar müstəqillik iddialarından əl çəkmir, özlərinin oyuncaq "prezident"lərini seçir, qondarma "parlament"ləri adından Azərbaycan dövlətinin əleyhinə bəyanatlar verirdilər. Azərbaycanın Qarabağ bölgəsindəki erməni silahlı qüvvələrinin bir sıra genişmiqyaslı hərbi təxribatlar və terror hücumları törətməsi vəziyyəti artıq dözülməz hala gətirib çıxarmışdı".

P.Kərimzadə qeyd edib ki, 2023-cü il sentyabrın 19-da təxribatlara cavab olaraq Azərbaycan antiterror tədbirlərinə başladı. 23 saat 43 dəqiqə ərzində erməni separatçıları ağ bayraq qaldırmağa məcbur oldular. Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılırdı. Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq, tam atəşkəs haqqında razılaşma əldə olundu və 2023-cü il sentyabrın 20-də saat 13:00-da lokal xarakterli antiterror əməliyyatı dayandırıldı: "24 saatdan az müddətdə həyata keçirilən antiterror əməliyyatı nəticəsində Azərbaycan ərazisində qanunsuz yerləşən Ermənistan ordusu tam şəkildə tərk-silah edildi, Qarabağda qanunsuz xunta rejimi ləğv olundu, separatçıların əsas rəhbərləri həbs edildilər. Rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirdi. Beləliklə, növbəti parlaq qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa olundu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, Azərbaycan ərazisində separatizmin kökü kəsildi. 2023-cü il 19-20 sentyabrda həyata keçirilən lokal xarakterli antiterror əməliyyatı Azərbaycan xalqının əyilməz ruhunu göstərdi, regionda sülhün, əmin-amanlığın bərqərar olmasına misilsiz töhfələr verdi".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 21 sentyabr (№202).- S.6.